# AZƏRBAYCAN RESPUBLİKASININ
# SƏHİYYƏ NAZİRİ

## Ə M R

№ 87

Bakı şəhəri „23" oktyabr 2015-ci il

**"Respublikada qrip və kəskin respirator xəstəliklərə qarşı profilaktik tədbirlərin gücləndirilməsi barədə"**

Payız-qış mövsümünün başlanması ilə əlaqədar əhali arasında qrip və kəskin respirator virus infeksiyalarına qarşı profilaktik və əksepidemik tədbirlərin, eləcə də infeksiya üzərində epidemioloji nəzarətin gücləndirilməsi məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tibb idarə və müəssisələrin rəhbərlərinə tapşırılsın:

1.1. qrip və kəskin respirator xəstələrin vaxtında aşkar edilməsi məqsədi ilə məktəb və məktəbəqədər uşaq müəssisələrində, ali və orta təhsil müəssisələrində tibbi müşahidələrin gücləndirilməsi təmin edilsin;

1.2. əhali arasında qrip və kəskin respirator virus xəstəliklərinin profilaktikası barədə kütləvi informasiya vasitələrindən geniş istifadə etməklə sanitariya-maarifi işi aparılsın.

2. Respublikanın şəhər və rayonların gigiyena və epidemiologiya mərkəzlərinin direktorlarına tapşırılsın ki, uşaq-yeniyetmə, tədris və tibb müəssisələrində sanitariya-gigiyena norma və qaydalarına, dezinfeksiya rejiminə ciddi riayət edilməsinə nəzarət gücləndirilsin.

3. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 18.11.2011-ci il tarixli 97 nömrəli əmri ilə müəyyən edilmiş şəhər və rayonların gigiyena və epidemiologiya mərkəzlərinin direktorlarına tapşırılsın ki, qrip və kəskin respirator xəstəliklərin kliniki, epidemioloji və virusoloji təhlili məqsədi ilə həftəlik məlumatların Respublika Gigiyena və Epidemiologiya Mərkəzinə göndərilməsi davam etdirilsin.

4. Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru A.Əlibəyova tapşırılsın:

4.1. respublikanın şəhər və rayonlarında qrip və kəskin respirator xəstəliklərə qarşı profilaktik və əksepidemik tədbirlərin aparılmasına metodik köməkliyin göstərilməsi təmin edilsin;

4.2. qrip və kəskin respirator infeksiyalar barədə məlumatın mütəmadi olaraq Səhiyyə Nazirliyinə təqdim olunması təmin edilsin.

5. Respublika Taun Əleyhinə Stansiyanın direktor vəzifəsini müvəqqəti icraçısı R.Abdullayeva tapşırılsın ki, respublikada qrip və kəskin respirator infeksiyaların laborator diaqnostikası təmin edilsin.

6. İnnovasiya və Təchizat Mərkəzinin direktoru R.Rüstəmbəyova tapşırılsın ki, qrip xəstəliyinin müalicəsi və laborator diaqnostikası üçün tələb olunan dərman preparatlarının və diaqnostikumların ehtiyatı yaradılsın.

7. Baş məsləhətçi-mətbuat katibi L.Bayramovaya tapşırılsın ki, qrip və kəskin respirator xəstəliyi barədə operativ məlumatların Səhiyyə Nazirliyinin saytında yerləşdirilməsi təmin edilsin.

8. Əmrin icrasına nəzarət Nazir müavinləri Abbas Vəlibəyova və Nigar Əliyevaya həvalə edilsin.

**Oqtay Şirəliyev**